# “Biz türkl� ri dost xalq hesab edirik“ - Putin

Yazan
20.12.15 19:49



"Biz türkləri dost xalq hesab edirik. Və istəmirik ki, bizim məhz türk xalqı ilə münasibətlərimiz məhdudlaşsın".

AzNews.az Report-a istinadən xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Vladimir Solovyovun bir hissəsi "Rossiya 1" telekanalı ilə yayımlanan "Miroporyadok" sənədli filmində göstərilən müsahibəsində bildirib.

Solovyovun Rusiyanın "Su-24" təyyarəsini vuran Türkiyənin düşməncəsinə hərəkətlərinə dair sualını cavablandıran Putin bildirib ki, Türkiyə xalqı ilə münasibətləri pozmaq istəmir:

"Türkiyə Avropa deyil, bu bir. İkincisi isə, artıq bugünkü müraciətimdə dediyim kimi, indi də

istəyirəm təkrar edim: Biz türkləri dost xalq hesab edirik. Və istəmirik ki, bizim məhz türk xalqı ilə münasibətlərimiz məhdudlaşsın. O ki qaldı hazırkı rəhbərliyə, - heç nə Ay altında əbədi deyil".